**Vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən ( hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü Validə Kazımovanın vətəndaş Ağayev Məmmədhüseyn Mərkəzi Seçki Komissiyasına daxil olmuş 26 dekabr 2009-cu il tarixli 150 saylı müraciəti üzrə**

**R Ə Y İ**

**Bakı şəhəri** **28 dekabr 2009-cu il**

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 66 saylı Biləsuvar seçki dairəsi üzrə Ağayev Məmmədhüseyn 2009-cu il dekabrın 26-da Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqram ilə müraciət edərək, həmin seçki dairəsinin bir neçə seçki məntəqələri məntəqə seçki komissiyaları tərəfindən onun seçki hüquqlarının pozulması-məntəqənin yekun protokolunun almamasını bildirmiş və müvafiq tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq araşdırmaya qəbul edilmişdir.Müraciət tam,hərtərəfli və obyektiv surətdə araşdırılmışdır.

Azərbaycan Respublikası Seçki Məcəlləsinə və yuxarıda göstərilən Təlimatın 8.6-cı bəndinə uyğun olaraq şikayət və ya müraciət aidiyyət qaydalarının pozulması ilə daxil olmuşdursa, onda həmin müraciət araşdırılmaq üçün aidiyyəti üzrə müvafiq dairə seçki komissiyasına göndərilməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1, 2, 4, 6, 7 və 8-ci bəndlərinə əsasən **q ə r a r a g ə l d i m :**

1. Vətəndaş Məmmədhüseyn Ağayevin müraciəti araşdırılması üçün aidiyyəti üzrə 66 saylı Biləsuvar seçki dairəsinin dairə seçki komissiyasına göndərilsin.
2. Rəy qəbul edildiyi andan 24 saat ərzində dərc edilsin (Mərkəzi Seçki Komissiyasının internet səhifəsində yerləşdirilisin) və surəti müraciyətçiyə göndərilirsin.

Ekspert qrupunun üzvü V.Kazımova